Müvafiq ali məktəblərin xüsusiyyətləri nəzərə alınaraq tədrisin təşkilinin yaxşılaşdırılması ilə bağlı təkliflərin müzakirəsinə həsr olunmuş iclasda təhsil naziri Misir Mərdanov, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Təmurçin Əfəndiyev, Azərbaycan Memarlıq və İnşaat Universitetinin prorektoru Fərhad Cəfərov, Azərbaycan Milli Konservatoriyasının prorektoru Akif Quliyev iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan təhsil naziri Misir Mərdanov mədəniyyət və incəsənət ixtisasları üzrə mütəxəssis hazırlayan ali məktəblərdən verilmiş bir sıra təkliflərə Təhsil Nazirliyində baxıldığını bildirib. Təhsil naziri müzakirəyə çıxarılan təklifləri nəzərə çatdırıb. Bununla bağlı ali məktəb rəhbərləri ilə birgə müzakirələrin əhəmiyyətli olacağına əminliyini ifadə edən nazir müəyyən məsələlərlə bağlı fikir və mülahizələrini söyləyib.

Sonra kulturologiya ixtisasının ixtisas təsnifatına daxil edilməsi, qabiliyyət tələb edən ixtisaslar üzrə bakalavr təhsili almış məzunlara ali məktəbdə pedaqoji fəaliyyət hüququ verəcək müvafiq peşəyönümlü kursun açılması, qabiliyyət tələb edən ixtisaslara qəbul zamanı elanlarda ixtisaslaşmaların adlarının da qeyd olunması, ehtiyac olan ali məktəblərə əlavə tyutor ştatlarının verilməsi, təhsil üzrə dövlət standartlarında ixtisaslaşma peşə hazırlığı və ixtisaslaşmalar üzrə seçmə fənlərə ayrılmış saatların miqdarının artırılması, ixtisasların özünəməxsusluğu nəzərə alınaraq ixtisas imtahanlarının müxtəlif formalarda təşkili və digər təkliflər ətraflı müzakirə edilib.

Sonda Təhsil Nazirliyinin səlahiyyətləri çərçivəsində olan bir sıra məsələlərin müsbət həlli, digərləri ilə bağlı isə aidiyyatı qurumlar qarşısında məsələ qaldırılması qərara alınıb.